Konfransın məqsədi layihəyə qoşulan ümumtəhsil məktəb rəhbərlərinin və digər partnyorların insan alverinə qarşı mübarizə üzrə biliklərini artırmaq, təhsil vasitəsi ilə insan alverinə qarşı mübarizə üçün milli çərçivə haqqında ümumi razılığa gəlmək, layihənin həyata keçirilməsi istiqamətində müvafiq beynəlxalq təcrübənin öyrənilməsi olub.

Beynəlxalq mütəxəssis İlya Dementiyev insan alverinə qarşı mübarizə üzrə Rusiya Federasiyasının Kalininqrad vilayətinin təcrübəsi ilə konfrans iştirakçılarını tanış edib.

Çıxış və təqdimatlardan sonra ətraflı müzakirələr keçirilib.

Konfransda Təhsil və Daxili İşlər nazirliklərinin əməkdaşları, QHT nümayəndələri, Milli idarəetmə komitəsinin üzvləri, layihənin koordinatoru və meneceri, layihə iştirakçıları olan Bakının 94, 149, 193, 158, 257, Xırdalan şəhər 3 və Sumqayıt şəhər 3 saylı məktəblərin rəhbərləri iştirak ediblər.